# Şuşa Bəyannaməsi tarixi Batumi və Qars müqavilələrinin məntiqi davamıdır

**Azərbaycan–Türkiyə münasibətlərinin qardaşlıq müstəvisində qurulması, bir-birinə dəstək prinsipinə sadiqliyi son 100 ildə bir neçə dəfə öz təsdiqini tapmışdır. 1918-ci ildə general Nuru paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusunun Azərbaycana köməyə gəlməsi, buranı bolşevik-erməni hərbi xuntalarından təmizləməsi xalqımızın yaddaşından silinməyib. Sovet dövründə bu tarixi hadisənin üstünə qalın pərdə çəkilsə də, xalq yaddaşında həmin qəhrəmanlıq səhifəsi unudulmadı.**



44 günlük Vətən müharibəsində isə Azərbaycan–Türkiyə münasibətləri, Türkiyənin Azərbaycanı bütün parametrlərdə dəstəkləməsi özünün ən yüksək zirvəsinə çatdı. Dövlət başçısı İlham Əliyevin təbirincə desək, dünyanın heç bir yerində bu qədər yaxınlıq nümunəsi mövcud deyildir.

İkitərəfli münasibətlərimizin keyfiyyətcə yeni inkişaf mərhələsini rəsmiləşdirən strateji təşəbbüslərdən ən mühümü isə müharibə nəticəsində 27 illik işğaldan azad edilən Şuşa şəhərində gerçəkləşdi. Belə ki, Azərbaycan və Türkiyə arasında 2021-ci il iyunun 15-də ölkəmizin mədəniyyət paytaxtında Bəyannamə imzalandı. İstər Bəyannamə, istərsə də Türkiyə Respublikasının Şuşada baş konsulluq açmaq qərarı Azərbaycanın Qarabağ bölgəsi üçün yeni imkanlar açdı. Şuşa Bəyannaməsinin imzalanması yeni nəslin tarix dərsliklərinə düşəcək əhəmiyyətli hadisədir. Çünki Bəyannamə ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə (siyasi, iqtisadi, ideoloji, humanitar) davamlı inkişafını təmin edir. Eyni zamanda, Bəyannamə müttəfiqliyin geostrateji əhəmiyyətini rəsmiləşdirir.

Şuşa Bəyannaməsi 9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan və Türkiyə arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"nin və "Azərbaycan və Türkiyə arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"un, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"nin məntiqi davamıdır.

Şuşa Bəyannaməsi həmçinin 13 oktyabr 1921-ci il tarixində imzalanmış Qars müqaviləsinə iki dost və qardaş ölkənin sadiqliyinin təcəssümüdür.

Şuşa Bəyannaməsinin Qars və Batumi müqavilələri ilə səsləşən müddəaları ekspertlərin diqqətini xüsusi olaraq cəlb edir. Tarixdən məlumdur ki, məhz Batumi müqaviləsi nəticəsində qardaş Türkiyə (o zaman Osmanlı dövləti) Azərbaycana birbaşa hərbi yardım göstərmiş, Qafqaza qoşun yeritmiş və azərbaycanlıları həm soyqırımı dəhşətlərindən, həm də, yeni elan edilən cumhuriyyəti məhv olmaqdan xilas etmişdi. Bu barədə mövcud tezislərin arasında Türkiyənin Tarixdaş Millətlər və Dövlətlər Birliyinin sədr müavini, tarixçi alim, professor Selma Yelin fikirləri maraqlıdır. O bildirib: "Tarix təkrardan ibarətdir, əgər tarixdən ibrət alınarsa, bu gün və gələcək daha yaxşı olacaq. Bunlardan birincisi, 28 may 1918-ci ildə müstəqilliyini elan edən Azərbaycan ilə Osmanlı imperiyası arasında 4 iyun 1918-ci ildə Batumidə imzalanmış sazişdir. Bu müqavilənin imzalanması ilə iki qardaş ölkənin hərbi və siyasi əlaqələrinin başlanması mümkün ola bilmişdi. Bu müqavilənin 4-cü maddəsində ehtiyac duyulduğu təqdirdə Osmanlı imperiyasının Azərbaycana hərbi yardım göstərə biləcəyi ifadə edilmişdi. Buna əsasən, Qafqaz İslam Ordusu quruldu və Azərbaycan türklərinin dəstəyi ilə erməni daşnaklarının işğalı altında olan Bakı 1918-ci il sentyabrın 15-də azad edildi. Bütün dünya buna qarşı olduğu halda bu zəfər qazanıldı. Bütün dünya deyərkən, Osmanlı imperiyasının müttəfiqi olan Almaniya bolşevik Rusiyası ilə gizli bir neft müqaviləsi bağladığı üçün, Moskva isə erməniləri dəstəklədiyi üçün buna qarşı çıxmışdı. Təəccüblü olan budur ki, bolşevikliyi böyük bir təhlükə kimi görən ingilislər də ermənilərin himayə olunması ilə eyni fikirdə idilər və buna görə də kiçik bir hərbi dəstəni ermənilərə kömək üçün göndərmişdilər. Tarix dərs alınmazsa, həmişə təkrarlanar – demişdik. Dərs alınmağa başlanıldığı son Qarabağ müharibəsində tarix eynən 1918-ci ildə Bakının azad edildiyi kimi təkrarlandı".

Tarixçi-alim fikirlərini bir qədər də inkişaf etdirərək bildirib ki, Şuşa Bəyannaməsinə bənzər ikinci müqavilə Qars müqaviləsidir. Bunu Azərbaycan Prezidenti İlham Əliyev də ifadə etmişdi. 1921-ci ildə Anadolu türklüyü üçün ölüm-dirim müharibəsi olan Sakarya Meydan Müharibəsi zəfərindən sonra çar Rusiyasının nəzarəti altında olan Azərbaycan, Ermənistan və Gürcüstan ilə Türkiyə Böyük Millət Məclisi (TBMM) arasında düz 100 il əvvəl, 13 oktyabr 1921-ci ildə Qars müqaviləsi imzalanmışdı.

Qars müqaviləsi giriş, 20 maddə və əlavələrdən ibarətdir. Bu, Moskva müqaviləsinin təkrarıdır. Bu müqavilə ilə Türkiyənin şərq sərhədi müəyyənləşdirilərkən bu cəbhədə Türkiyə Böyük Millət Məclisi üçün ən böyük problem olan erməni məsələsi də həll edildi. Müqavilə çərçivəsində Azərbaycan türklərinin sıx yaşadığı Naxçıvan bölgəsi muxtariyyət qazandı. Ancaq bu, o qədər də asan olmadı, əvəzi ödənildi. O dövrdə ölüm-dirim müharibəsi aparan Türkiyə Böyük Millət Məclisi Rusiyanın Naxçıvana qarşı təkidli tələblərinə inadla qarşı çıxmış, hətta Moskvanın bunu Azərbaycan SSR rəhbərliyinə qəbul etdirməsinə baxmayaraq, müqavimət göstərməyə davam etmişdi. Beləcə, SSRİ Batumini ala bilmək üçün Naxçıvandan imtina etmək məcburiyyətində qalmışdı. Nəticədə Türkiyə də Batumidən imtina etmək məcburiyyətində qalmışdı. Beləliklə, Türkiyə Böyük Millət Məclisinin səyi ilə imzalanan Qars müqaviləsi ilə Azərbaycanın ərazi bütövlüyü qismən də olsa qorunmuş və Naxçıvanın üçüncü bir ölkəyə verilməməsi şərti ilə Azərbaycana bağlı muxtar bir respublika kimi mövcudluğunu saxlamışdı. Türkiyə Böyük Millət Məclisinin digər bir tələbi də Azərbaycanı müstəqil bir dövlət kimi görmək və siyasi əlaqələrini bu xətt üzrə davam etdirmək idi.

Tarixçi haqlıdır, bu gün Qars müqaviləsi Türkiyə–Ermənistan sərhədlərinin açılmasından Naxçıvanın statusuna qədər bütün məsələlərdə Türkiyənin dayaq nöqtəsidir və xüsusilə Ermənistan və digər ölkələrdən gələ biləcək təhlükələrə qarşı Naxçıvan və Batumi zəmanətləri xüsusunda Türkiyəyə hüquqi və siyasi müdaxilə imkanı verir. Lakin bu gün Gürcüstandan belə bir təhlükə gözlənilməsindən söhbət gedə bilməz. Əksinə, iki ölkə arasındakı dostluq münasibətləri möhkəmlənməyə davam edir. O zaman əgər Naxçıvanı itirsəydik, onda həm növbəti böyük tarixi torpağımızı itirmiş olardıq, həm də Türkiyə ilə əlaqələrimiz tam kəsilərdi. Bu isə Azərbaycanı daha asılı və daha zəif bir duruma sala bilərdi. Naxçıvan həm də tarixi Türkiyənin başda Azərbaycan və Türküstan olmaqla türk dünyası ilə əlaqəsini yaradacaq yeganə qapıdır.

SSRİ-nin dağılması ilə başlayan yeni siyasi mühitdə Ermənistan yenidən tarixi təkrarlayaraq Qarabağa hücum etdi və 1991-ci ilin fevralında Qars müqaviləsi ilə çəkilən sərhədi tanımadıqlarını elan etdi və bunun ardınca 23 sentyabr 1991-ci il tarixindən etibarən Ermənistan Konstitusiyasının 13-cü maddəsində Ağrı dağı dövlət gerbində milli simvol kimi görünməyə başlandı. Bunlara baxmayaraq, ermənilər həm də yaxşı dərk edirlər ki, Türkiyənin Ermənistana qarşı siyasi, hüquqi və hərbi müdaxiləsi üçün Qars müqaviləsi çox ciddi tarixi sənəddir.

Şuşa Bəyannaməsində Türkiyə Respublikası və Azərbaycan Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər. Sənəddə hər iki ölkənin qarşılıqlı olaraq təhlükəsizliyinin təmini üçün irəli sürülən müddəa isə hər iki ölkə arasında mövcud olan həmrəyliyin rəsmiləşdirilməsi, "bir millət, iki dövlət" devizinin təsdiqlənməsidir.

Şuşa Bəyannaməsində iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin davam etdirilməsi də onu deməyə əsas verir ki, Azərbaycan Ordusu daha da mobilləşdiriləcək, hərbi-texniki imkanları, kadr potensialı daha da gücləndiriləcək və Cənubi Qafqazın ən güclü ordusu statusunu hər zaman əlində saxlayacaq.

Təsadüfi deyildir ki, ABŞ-ın "National Interest" adlı nüfuzlu nəşrində Şuşa Bəyannaməsi barədə analitik yazı dərc olundu. Məqalədə qeyd olunur ki, Azərbaycan bütün regional və qeyri-regional dövlətlərlə əməkdaşlığı genişləndirmək niyyətindədir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Qarabağa son səfəri və Şuşa Bəyannaməsinin imzalanması ikitərəfli münasibətlərə yeni təkan verəcəkdir. Xüsusilə vurğulanmalıdır ki, Şuşa Bəyannaməsi iki dövlət arasında hərbi əlaqələrin dərinləşdirilməsini nəzərdə tutur.

Nəşrdə o cümlədən vurğulanır ki, Şuşa Bəyannaməsi Azərbaycana qarşı bir kəskinləşmə və ya hücumlar olarsa, Türkiyənin müttəfiqini müdafiə etmək üçün açıq şəkildə münaqişəyə qoşulacağı deməkdir.

Beləliklə, Azərbaycan–Türkiyə olaraq qardaşlıq münasibətlərimizin yeni möhtəşəm səhifəsi açılır. Bu, azad edilən Şuşa şəhərində imzalanmış tarixin mühüm bir parçasına çevrilən Şuşa Bəyannaməsidir. Bu Bəyannamə keçmişdəki siyasi uğursuzluqların, torpaq və insan itkilərimizin nə vaxtsa bir daha təkrarlanmaması, region üçün məkrli planlar hazırlamaq istəyən istənilən qüvvənin hədəflərini indidən fiaskoya uğradan, dərindən düşünülmüş qardaşlıq ittifaqıdır.

*Anar TURAN, "Xalq qəzeti"*